

Sənətini bu dərəcədə sevən, işinə bu qədər bağlı, vəzifəsinə məsuliyyətlə yanaşan az adam tapılar. Akif müəllimi həmkarlarından həm də özündə yaşatdığı yüksək insani xüsusiyyətlər fərqləndirir. Nə qədər sadədirsə bir o qədər də səmimidir. Nə qədər ciddidirsə bir o qədər də mehribandır. Ətrafındakılara qarşı son dərəcə diqqətcil və qayğıkeşdir.

# Yüksək məziyyətin nəticəsi

Fərqlənənlərimiz

**Bəlkə də bu yüksək məziyyətlərinə görə rəhbərlik etdiyi kollektivdə ona inam və hörmətlə yanaşanların sayı günü-gündən artır. Nəticədə bir vaxtlar adı problemli məktəblər sırasında çəkilən Qarayeri qəsəbə uşaq musiqi məktəbində tədricən işlər öz axarına düşür.**

Məktəb direktoru Akif Əliyevin söhbətindən:

- Samux rayonundakı Qarayeri qəsəbə uşaq musiqi məktəbi 1999-cu ildə yaradılıb. Tələbat güclü olduğundan elə brinci il məktəbə 180 şagird qəbul olunub. İndi bunları danışarkən məktəbin ilk müəllimlərinin - Xoşqədəm İsmayılova, İlnarə Talıbova, Saida Məmmədova və başqalarının adlarını hörmətlə çəkməyi lazım bilirəm.

Hazırda məktəbimizdə 375 nəfər şagird oxuyur. Onların müxtəlif ixtisaslar üzrə təlim-tərbiyəsi ilə 87 nəfər məşğul olur. Müəllimlərdən Tacirə İsgəndərovanın, Mahirə Vəliyevanın, Azər Mustafayevin və başqaların adlarını çəkməyi məqsədəuyğun bilirəm.

Məhz onların işgüzarlığı, vəzifələrinə məsuliyyət və yaradıcılıqla yanaşmalarının nəticəsidir ki, yetirmələrimiz arasında aşkara çıxarılan istedadların sayı artır, respublika və rayon səviyyəli festival və müsabiqələrə daha fəal qoşulurlar.

Məktəbdə müəllim və şagirdlərdən ibarət xalq çalğı alətləri ansamlları və trio da özünün rəngarəng proqramları ilə diqqət çəkir. Bu mənada, müəllimlərdən ibarət trionun (kamançaçı Akif Əliyev, tarzən Səbuhi Qurbanov, xanəndələr Hacı Məhəmməd Hüsey-







nov və Əmrah (el arasında onu Pənah kimi tanıyırlar) Abdullayev) çıxışları xüsusi maraq doğurur.

Bir qədər də həmsöhbətimiz haqqında. Akif Əliyev 1951-ci il mayın 1-də Gəncə şəhərində anadan olub. Dövlət Konservatoriyasının tar şöbəsini(Ramiz Mirişlinin sinifini) bitirib. Rauf Hacıyev, Süleyman Ələsgərov və Hacı Xanməmmədov kimi bəstəkarlardan dərs alıb. Əmək fəaliyyətinə Göygöl uşaq musiqi məktəbində başlayıb. Qənbər Hüseynli adına Gəncə və Soltan Hacıbəyov adına Sumqayıt musiqi texnikumlarında müəllimlik edib.

Moskvada çalışdığı illəri Akif müəllim indi də unuda bilmir. Musiqimizin inkişafı və təbliği məqsədilə əlindən gələni əsirgəməyib. Buraya respublikamızdan təşrif gətirən neçə-neçə müğənnini, o cümlədən, Babək Niftəliyevi kamançada müşayiət edib.

Akif müəllim həm də gözəl ailə başçısıdır. Həyat yoldaşı Lütfiyyə xanımla ( o Gəncə şəhər 1 saylı məktəbin dərs hissə müdiridir) həyatda 3 övlad pərvazlandırır. Ailədəki 5 nəfərin hamısı ali təhsillidir .

**Böyük qızları Aynur Moskvada ali tibb təhsili alıb. Gəncədə A.Səhhət adına poliklinikanın həkimidir. Aytən BDU-nın tarix fakültəsini, Elbəy isə Texnologiya Universitetini bitirib. A.Əliyev harada çalışıbsa uğur qazanıb, ona bəslənilən etimadı ləyaqətlə doğruldub. Bu baxımdan onun Qarayeri UMM-dəki fəaliyyət dövrü də istisnalıq təşkil etmir.**

**● E.HƏSƏNQIZI**

